# Tvinninq Bülleteni

Funded by the European Union

**BURAXILIŞ 4** | **AZ/16/ENI/EC/02/19** | **yanvar, 2022-ci il**

## GİRİŞ QEYDİ

Hörmətli oxucular,

AZSTAND Tvinninq bülleteninin 4-cü buraxılışına xoş gəlmisiniz. 2021-ci ilin sentyabr ayı üzrə son buraxılışımızdan etibarən layihədə bir çox dəyişikliklər baş vermişdir ki, bunları sizlərlə bölüşməyə şad olacağıq.

İlk növbədə, bunu bildirməkdə məmnunuq ki, RTM ilk dəfə olaraq 2021-ci ilin noyabrında Bakıya səfər edə bilmiş və AZSTAND-ın bütün tərəfdaşları ilə görüşmüşdür. Səfər çox məhsuldar keçmişdir. Layihənin müddətinin nəzərdə tutulmuş tərzdə uzadılması müzakirə edilmiş, eləcə də, məsləhətləşmə missiyalarının gələcək planlaşdırılması ilə bağlı irəliləyişlər və fikir mübadiləsi aparılmışdır.

Eyni zamanda, AZSTAND ekspertləri Milli Standartlaşdırma Strategiyası və ya İnstitusional Yol Xəritəsi kimi layihənin əsas dönüş mərhələlərinə gəlib çatmışlar.

Bununla yanaşı, İqtisadi İnkişaf Nazirliyinin ümumilikdə təşkilati dəyişikliklərdən keçdiyi zamanda AZSTAND-da da belə struktur dəyişikliklər aparılmaqdadır.

Layihə hazırkı qlobal çətinliklər fonunda çox müsbət inkişaf etməkdədir və hər iki tərəf tezliklə real məkanda görüşməyi planlaşdırır.

Bu qısa yenilənmiş icmaldan zövq alacağınıza ümid edirik!

Berlin, Bakı, yanvar, 2022-ci il

## SON YENİLİKLƏR

Bugünə qədər olan müddətdə layihənin demək olar 60%-i icra edilmişdir. 180 iştirakçının daxil olduğu 27 məsafəli missiya təşkil edilmiş, iştirakçı tərkibinin 70%-i qadın və 40%-i kişi olmuşdur. COVİD-19 fəsadları fonunda bu böyük bir göstəricidir. Bununla belə, bütün layihə nəticələrinin əldə olunması üçün bir çox fəaliyyətlər hələ də icra edilməlidir. Buna layihənin ilkin vaxt müddəti (2022-ci il 30 aprel tarixinədək) çərçivəsində imkan olmadığı üçün Konsorsium və AZSTAND layihənin müddətinin 2022-ci il 31 oktyabr tarixinədək uzadılmasına görə müraciət etmişlər. Bununla bağlı olan Əlavə hazırlanmaqdadır.

Nazirlər Kabinetinin qərarına əsasən, Azərbaycanda Keyfiyyətin İnsfrastrukturu sistemi yenidən təşkil olunacaqdır. AZSTAND milli texniki reqlament sisteminin hazırlanmasında əsas rol oynayacaq qurumlar sırasında olacaqdır. Bundan başqa, AZSTAND gələcəkdə marketinq/tərəfdaş münasibətləri sahəsinə daha çox diqqət yönəldəcək və biznesin inkişafı şöbəsini yaradacaqdır. Hazırda yeni işçi heyəti işə qəbul olunmaqdadır. Yeni əvəzedici direktor cənab İlham Bayramov 2021-ci il 10 dekabr tarixində AZSTAND-a təyin edilmişdir.

## İCRA

Missiyaların icrası planlaşdırıldığı tərzdə gedir. Vurğulanmalı nəticələr olaraq AZSTAND tərəfindən ilk Standartlaşdırma Strategiyası və İnstitusional Yol Xəritəsinin hazırlanmasını qeyd etmək olar. Yeni marketinq və kommunikasiya alətləri vasitəsilə bu tərəfdaş münasibətlərinin təkmilləşdirilməsinə gətirib çıxarmışdır. AZSTAND özünün İT infrastrukturunun təkmilləşdirilməsi istiqamətinə yaxınlaşır ki, bu da standartların alına biləcəyi və tərəfdaşlar, müştərilər üçün digər xidmətlərin təmin oluna biləcəyi gələcək onlayn dükanın yaradılması baxımından əhəmiyyətlidir.

This project is funded by the European Union

Bununla belə, pandemiya vəziyyətinə görə Bakıya heç bir ekspert missiyası və ya Konsorsium ölkələrinə heç bir araşdırma səfəri təşkil edilə bilməmişdir. Peyvənd və PCR testləri beynəlxalq səfərlərin tənzimləndirilməsinə təkan versə də, Konsorsium üzvlərinin institusional səviyyəsindəki qaydalar ölkə səviyyəsində olan qaydalardan daha ciddi olmuşdur. Bu da öz növbəsində real səfərləri çətinləşdməkdədir.




RTM-in (ortada) AZSTAND-a səfəri, noyabr, 2021-ci il, AZSTAND əməkdaşları

Bununla belə, pandemiya vəziyyətinin imkan verəcəyi təqdirdə yerində ilk missiyaların qismən yaz/yay mövsümündə başlanacağı nəzərdə tutulur. Eyni zamanda, hər iki tərəf əksər missiyaların məsafəli rejimdə keçirilə bilməsini mümkün edən yanaşmanı uğurla inkişaf etdirmişlər.

**Tvinninq komandası**

Denis Kaşuba – RTM
Email: denis.kaschuba.ext@ptb.de

Lalə Hüseynova - RTM Köməkçisi
Email: lala.husseynova@gmail.com
Phone: +994 70 338 58 28

Venera Mehdiyeva – Tərcüməçi
Email: venera.bakutwinning@gmail.com
Phone: +99455 312 71 91

**Icraçı partnyorlar:**

BMWi, PTB, DIN (Almaniya), SIS (İsveç), UNE (İspaniya)



İş Planına dair müzakirələr, RTM (solda) və AZSTAND əməkdaşları, noyabr, 2021-ci il

## GÖRÜLƏCƏK İŞLƏR

Layihənin ikinci rübü üzrə əsas diqqət bazara nəzarət kimi texniki reqlament sahəsinə aid olan mövzulara yönəldiləcəkdir. Əlavə mövzulara onlayn dükan, tərəfdaşlarla münasibətlər, layihənin idarə edilməsi alətləri, marketinq və standartlaşdırmanın faydalarına dair seminarın keçirilməsi daxil olacaqdır. Layihənin idarə edilməsi baxımından əsas hədəf ekspertlərin Bakıya və Konsorsium ölkələrinə səfərlərinin təşkil edilməsi olacaqdır. Hər Tvinninq layihəsi şəxsi mübadilələrlə yadda qalır ki, bunu da yeni texnologiyalarla tamamilə əvəz etmək mümkün deyildir.

Vəziyyətin imkan yaratdığı təqdirdə RTM Bakıya müntəzəm səfərlərini keçirməklə hybrid rejimində işləməyi planlaşdırır.

AZSTAND Tvinninq internetdə:

Website

Facebook

LinkedIn

*Bu Layihə Avropa İttifaqı tərəfindən maliyyələşdirilir.*

*Bu nəşrin məzmunu Tvinninq layihəsinin RTM-i Denis Kaşubanın tam məsuliyyəti üzərinə düşür və Avropa İttifaqının rəyini əks etdirmir.*

This project is funded by the European Union